# “SƏS” QƏZETİ - 29 İL AZƏRBAYCAN UĞRUNDA!

## Böyük şərəf, mübarizə və əqidə yolu




### Xalqın və YAP-ın mətbu ruporuna çevrilən əqidə məktəbi

“SƏS” qəzetinin keçdiyi tarixi yol, onun fəaliyyətini bütün hallarda Yeni Azərbaycan Partiyasının fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. Başqa sözlə, “SƏS” xalqın dəstəklədiyi YAP ilə ortaq tarixi inkişaf yolu keçib, həlledici məqamlarla partiyanın məqsəd və məramlarının geniş ictimaiyyətə çatdırılmasında müstəsna rol oynayıb. Ona görə də, bu qəzet həm də xalqın və YAP-ın mətbu ruporu kimi qiymətləndirilməkdədir.

Beləliklə, vurğulandığı kimi, “SƏS” qəzeti bu gün də YAP-ın ideyalarının ən fəal təbliğatçısı kimi çıxış edir. Partiyanın fəaliyyətinin təbliğində və işıqlandırılmasında bu qəzetin özünəməxsus rolu var. YAP-ın mövqeyini, siyasi kursunu müdafiə edən qəzetlər sırasında “SƏS” qəzeti öz ardıcıllığı, mübarizliyi və məqsədyönlülüyü ilə seçilir.

### “Qoy ədalət zəfər çalsın!”

“SƏS” qəzeti öz şüarına sədaqətini ötən əsrin 90-cı illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin və ideyalarının mübariz təbliğatçısı rolunu qətiyyətlə öz üzərinə götürməklə və təsdiqləməklə ədalət carçısı olduğunu müxtəlif dövrlərdə sübuta yetirib. Məhz bu mübarizlik, haqqa söykənib haqq-ədalət uğrunda mücadilənin önündə olmaq “SƏS” qəzetini populyarlaşdırıb, onun özünəməxsus oxucu auditoriyasını formalaşdırıb. Elə buna görə, YAP-ın üzvləri, fəalları, tərəfdarları, bütövlükdə, geniş ictimaiyyət “SƏS” qəzetini sevə-sevə oxuyur və çox yüksək qiymətləndirir.

“Səs” qəzeti yarandığı vaxtdan başlayaraq, nəşrin baş redaktoru olmuş Ağabəy Əsgərovun gördüyü işləri isə, xüsusilə, qeyd etmək lazımdır. Məhz onun prinsipiallığı, mübarizliyi o dövrdə hakimiyyətdə olmuş şəxslərin narahatlığına səbəb olub. Yeri gəlmişkən, “SƏS”ə qarşı yalnız AXC-Müsavat iqtidarı deyil, Mütəllibov hakimiyyəti də qısqanclıqla yanaşıb. Məsələn, çoxlarının bilmədiyi bir nüans da - qəzetin elə birinci nömrəsindən sonra şəxsən Mütəllibovun göstərişi ilə bağlanmasını göstərmək mümkündür. Lakin oxucuların, tanınmış ziyalıların israr və tələblərindən sonra qərarı dəyişməyə məcbur olublar və qəzetin nəşri bərpa edilib. Beləliklə, nə Mütəllibov hakimiyyəti, nə də AXC-Müsavat iqtidarı dövrlərində “SƏS” qəzetinin nəşri bir neçə dəfə dayandırılsa da, qəzetə dəfələrlə hücumlar edilsə də, bu hərəkətlər qəzetin fədakar kollektivini öz haqq-ədalət yolundan və milli mücadilədən çəkindirməyib! Bu səbəbdən, qəzet bir növ Azərbaycan mətbuatı üçün haqq-ədalət uğrunda çarpışma və mübarizə aparan məktəb rolunu oynayıb. Azərbaycanın bugünkü mətbuatında da “SƏS” qəzetinin özünəməxsus yeri var.

Heydər Əliyev idealları, Heydər Əliyev siyasəti daim təbliğ olunmalı olan, indiki və gələcək nəsillərə çatdırılmalı dəyərlərimizdəndir. “SƏS” bu istiqamətdə xüsusi fəallığı və peşəkarlığı ilə seçilir. Ölkədə baş verən ictimai-siyasi proseslərə doğru-düzgün və obyektiv yanaşması ilə seçilən “SƏS” qəzeti Prezidentin, eləcə də, YAP-ın bununla bağlı prinsipial mövqeyini ardıcıl şəkildə işıqlandırır və müdafiə edir.

“SƏS” qəzeti, mütəmadi olaraq, Ümummilli Lider Heydər Əliyev, Prezident İlham Əliyev, həmçinin, Yeni Azərbaycan Partiyasının fəaliyyəti haqda xüsusi buraxılışlar və multimedia diskləri hazırlayıb, cəmiyyətə təqdim edir. Bu da insanlar arasında maraqla qarşılanır. “SƏS”in hazırladığı kitab, film və jurnallar, bir qayda olaraq, Azərbaycan xalqına və dövlətçiliyinə, həmçinin, bu xalqın və dövlətin böyük şəxsiyyətlərinə həsr olunur. “SƏS” qəzeti Azərbaycan mətbuatında Ulu Öndər Heydər Əliyevlə bağlı ən son xəbərləri, hadisələri operativ və obyektiv şəkildə əks etdirən yeganə qəzet olub. 1994-cü ilin 19 noyabrında YAP-ın konfransında Ümummilli Lider Heydər Əliyevin bu sözlərini qəzetin fəaliyyətinə verilmiş ən böyük qiymət hesab etmək olar: “Sən demə, iki balaca otaqda da dövrün nəbzini tutan bütün problemlərə fədakarlıqla sinə gərən qəzet buraxmaq olarmış”.

“Mətbuatın Dostu” adını almış Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bütün KİV-lərə göstərdiyi dəstək və qayğı jurnalist mədəniyyətinin inkişafına, sivil dəyərlərə inteqrasiya prosesinin sürətlənməsinə, demokratik dəyişikliklərin və həyata keçirilən islahatların geniş əhali kütləsinə çatdırılmasında “SƏS” qəzetinin layiqli rol oynamasına öz təsirini göstərib.

Prezident İlham Əliyev: “Yeni şəraitdə Azərbaycanın digər mətbuat orqanları arasında özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən “SƏS” qəzeti də iş prinsiplərini zamanın tələblərinə uyğun quraraq cəmiyyət həyatının bütün sahələrini, ictimai maraq kəsb edən aktual mövzuları həmişə diqqət mərkəzində saxlamış, milli dövlətçilik ənənələrinin əsl təbliğatçısı olmuş və öz oxucu auditoriyasının informasiya ehtiyacını ödəməyə çalışmışdır.”

Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunun davamçısı Möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın inkişafı və çiçəklənməsi, xalqın rifahının yüksəlməsi yolunda gördüyü möhtəşəm işlərin işıqlandırılması və əhaliyə çatdırılmasında “SƏS” qəzeti müstəsna rol oynayır.

Qəzetin müasir informasiya texnologiyalarını mənimsəmək sahəsində göstərdiyi səylər, şübhəsiz ki, təqdirəlayiqdir. Hazırda bununla bağlı qəzetin fəaliyyətində böyük tərəqqi, müsbət irəliləyiş müşahidə olunur. Artıq qəzetin bazası əsasında yaradılmış “SƏS” İnformasiya Agentliyi, “SƏS” İnternet Televiziyası fəaliyyət göstərir və qısa zamanda, bu agentlik öz maraqlı və obyektiv informasiyaları ilə təkcə ölkə oxucularının deyil, həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların mütəmadi izlədikləri bir internet resursa çevrilib.

Şübhə yoxdur ki, “SƏS”in kollektivi yeni informasiya texnologiyalarını mənimsəmək sahəsində qarşıya çıxan növbəti həlli vacib çoxsaylı vəzifələrin öhdəsindən də bacarıqla gəlməyi məqsəd kimi qarşıya qoyub. Çünki “SƏS”in 9 il öncə keçirildiyi 20 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz tarixi kəlamlarını səsçilərlə bölüşüb. Təbrik məktubu ilə müraciət edən ölkə başçısı vurğulayıb: “Azərbaycanın ilk müstəqil mətbuat orqanlarından olan “SƏS” qəzetinin kollektivini fəaliyyətə başladığı 20 illik yubileyi münasibətilə təbrik edirəm. İlk nömrəsi gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi mürəkkəb dövrdə - 1991-ci ilin yanvarında işıq üzü görmüş “SƏS” qəzeti, qısa zamanda, əsl müstəqil və demokratik mətbuat nümunəsinə çevrilmişdir. Cəmiyyətdə siyasi plüralizmə böyük ehtiyac duyulduğu həmin illərdə, qəzet müxtəlif ictimai-siyasi dairələrin, sağlam düşüncəli vətənpərvər ziyalıların tribunasına çevrilmiş, vətəndaşları narahat edən məsələləri, dövrün aktual problemlərini cəsarətlə ictimai müzakirəyə çıxarmış, müxtəlif yönlü təqib və təzyiqlərə baxmayaraq, öz mübariz mövqeyindən geri çəkilməmişdir”.

Prezident təbrik məktubunda qeyd edib ki, müstəqillik illərində Azərbaycanda demokratik dəyişikliklərlə yanaşı, söz və məlumat azadlığı da inkişaf edib və kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün geniş imkanlar yaranıb. “Yeni şəraitdə Azərbaycanın digər mətbuat orqanları arasında özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən “SƏS” qəzeti də iş prinsiplərini zamanın tələblərinə uyğun quraraq, cəmiyyət həyatının bütün sahələrini, ictimai maraq kəsb edən aktual mövzuları həmişə diqqət mərkəzində saxlamış, milli dövlətçilik ənənələrinin əsl təbliğatçısı olmuş, öz oxucu auditoriyasının informasiya ehtiyacını ödəməyə çalışmışdır. Ümummilli Lider Heydər Əliyev mətbuatda plüralizmin formalaşmasına və inkişafına mühüm töhfə vermiş “SƏS” qəzetinin fəaliyyətini və cəmiyyət qarşısında xidmətlərini daim yüksək qiymətləndirmişdir” deyə tarixi təbrikdə qeyd olunmuşdu.

Ölkə Prezidenti fəaliyyət göstərdiyi bütün dövrlərdə öz amallarına sadiq qalmış “SƏS” qəzetinin kollektivinin bundan sonra da həqiqət carçısı olacağına, ictimai maraqların, milli-dövlətçilik mənafelərinin qorunmasında yüksək peşəkarlıq və prinsipiallıq göstərərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirəcəyinə inandığını vurğulayaraq, öz təbriklərini qəzet kollektivinə çatdırıb. Əlbəttə ki, iftixar və qürur doğuran məqamdır ki, ölkə Prezidenti İlham Əliyev ölkə mətbuatı tarixində, ilk olaraq, məhz müstəqil media orqanına xüsusi təbrik ünvanlayıb, qəzetimizin qocaman işçilərini müxtəlif fəxri adlara layiq görüb və mükafatlandırıb.

Sonda isə bir daha Ulu Öndər Heydər Əliyevin “SƏS” qəzeti haqda söylədiyi tarixi sözləri xatırlatmaq istəyirik: “SƏS” qəzeti mənim üçün çox əziz qəzetdir. 1991-ci ilin fevral ayında, Azərbaycanda kommunist hakimiyyəti dövründə mən Ali Sovetdə çıxış edəndən sonra mənim çıxışım,- xatirinizdədir, o vaxt mənim çıxışımı hörmətdən salmağa çalışdılar, onu dərc etmək də istəmirdilər, amma mənə lazım idi ki, o, dərc olunsun, - “SƏS” qəzetində dərc edildi. Mən Naxçıvanda işləyərkən, bizim bir neçə tədbirlərimiz barədə yazıları “SƏS” qəzetində dərc edə bildik. Nəhayət, “SƏS” qəzeti “91-lər”in müraciətini dərc edib, mənim cavabımı dərc edibdir. Ona görə də “Səs” qəzeti bizim partiyanın tarixində ən mötəbər yer qazanmış bir qəzetdir. Görürəm ki, son vaxtlar özünün xüsusiyyətlərini itirmədən modernləşir, yaxşılaşır. Arzu edirəm ki, daha da modernləşsin və yaxşılaşsın”.

Biz Ulu Öndərimiz, Dahi Şəxsiyyət Heydər Əliyevin bu kəlamlarını özümüzə kredo kimi götürərək, fəaliyyətimizi bundan sonra da inkişaf etməyə, mübarizliyə və müasirləşməyə yönəldəcəyik! 29 yaşın mübarək, doğma “SƏS”imiz!

***Rövşən NURƏDDİNOĞLU***